# AZƏRBAYCAN DİLİ – MİLLİ VARLIĞIMIZIN TƏMƏLİ

**Arzu Əsədova**

*Elmi Pedaqoji Tədqiqatlar Mərkəzinin Təşkilati şöbəsinin mütəxəssisi*

arzu.asadova@arti.edu.az

***“Əgər bir dil bir dövləti təmsil etmirsə, o dilə nə deyirsən de, o dövlət dili ola bilməz”.***

***Heydər Əliyev***

Azərbaycan dili Azərbaycan xalqının milli dilidir, eyni zamanda, bu dil Azərbaycan Respublikasının rəsmi dövlət dilidir. Azərbaycan dilindən həm Respublikamızda, həm də dünyanın 87 ölkəsində yaşayan azərbaycanlılar tərəfindən istifadə olunur. Ümumiyyətlə, ana dili kimi Azərbaycan dilində 50 milyondan artıq adam danışır. Bundan başqa, hazırda Azərbaycan ərazisində yaşayan bir sıra azsaylı xalqlar, o cümlədən lahıc, talış, tat, qrız və başqaları Azərbaycan dlindən ikinci ana dili kimi istifadə edirlər.

Azərbaycan dili öz mahiyyətinə görə indi dünyanın ən zəngin milli dillərindən biri sayılır. Bu dilin özünəməxsus gözəlliyi və ahəngi vardır. Azərbaycan dili, hər şeydən əvvəl, xoş avaz yaradan səslər sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, tam sabitləşmiş qrammatik quruluşa malikdir. Azərbaycan dilində ən dərin duyğuları, ən incə mənaları istədiyin şəkildə çox müxtəlif bədii boyalarla ifadə etmək olar. Bu dil elmi, siyasi, fəlsəfi fikirləri çox aydın ifadə etməyə qadir olduğu kimi, bədii təfəkkürün gözəl nümunələrini yaratmaq üçün də çox yararlıdır. Dünya mədəniyyəti xəzinəsinə qiymətli hədiyyə kimi daxil olan və onu zənginləşdirən M.Füzulinin məşhur “Leyli və Məcnun” poeması, M.F.Axundovun komediyaları və bir çox misilsiz sənət əsərləri həmin dildə - Azərbaycan dilində yaranmışdır.

Azərbaycan dilinin gözəlliyi, onun zənginliyi və digər xüsusiyyətləri tarixən bir sıra görkəmli şəxsiyyətlərin nəzər-diqqətini özünə cəlb etmişdir. Böyük rus şairi M.Y.Lermontov Azərbaycan dili haqqında demişdir: *“...Mən bir çox dağlar aşdım,*

*Şuşa, Quba və Şamaxı şəhərlərində oldum... azərbaycanca öyrənməyə başladım; həmin dil burada ümumiyyətlə, Asiyada fransız dilinin Avropada olduğu qədər zəruri bir dildir*".

Görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətai demişdir: "*Ərənlərimiz bizə üç əmanət qoyub getmişlər: dilimiz, torpağımız və qeyrətimiz*". Dilimizi yaşatmaq, inkişaf etdirmək və onun saflığını qorumaq hər bir vətən övladının qeyrət və namus borcudur. Torpağımız kimi ana dilimizi də işğaldan qorumalı və gələcək nəsillərə ərməğan etməliyik.

Unudulmaz xalq şairimiz S.Vurğun xalqın dilini, tarixini, ədəbiyyatını, mədəniyyətini gənc nəslə dərindən öyrənməyi zəruri hesab etmişdir. "*Xalqın çox böyük bir dövləti vardır. Bu müqəddəs dövlət xalqın dili idi. Dil xalqın namusu deməkdir, vicdanı deməkdir*", - deyən şair Azərbaycan dilinin saflığı uğrunda daim mübarizə aparmışdır və hər yerdə dil məsələsini göz bəbəyi kimi qorumağı tövsiyə etmişdir.

Məlumdur ki, insanların daim xidmətində olan dil cəmiyyətdə əvəzsiz əhəmiyyətə malikdir. Dil insan həyatının mənasıdır. Dilsiz cəmiyyət mümkün deyil. Dilin köməyi ilə Yer kürəsinin qitələri bir-biri ilə əlaqə saxlayır, biri digərinin elmi kəşfləri, bədii sənət sərvətləri ilə tanış olur. Eyni zamanda qeyd etmək lazımdır ki, dil cəmiyyətin elmi və mədəni həyatının inkişafında da başlıca vasitələrdən biri olmuş və indi də belə bir mühüm vasitə olaraq qalır.

Hər bir xalqın və millətin bir dili olur. Həmin dil o xalq və ya millətin ümumi dili olduğu üçün buna ümumxalq dili deyilir. Ümumxalq dili çox geniş anlayışdır. Belə ki, ümumxalq dili dedikdə, xalqın bütün dil vasitə və formalarının məcmusu nəzərdə tutulur. Dildə hər nə varsa, bunların hamısını ümumxalq dili əhatə edir. Məlumdur ki, hər bir xalq və ya millətin bütün üzvləri ümumxalq dilindən eyni şəkildə, eyni qaydada istifadə edə bilmirlər. Məsələn, ziyalılar, xüsusən alim və yazıçılar dildən daha məharətlə istifadə etməyə meyil göstərirlər. Onlar ümumxalq dilinin söz və ifadələrini, qayda-qanunlarını daha da cilalayır və daha mükəmməl şəklə salırlar. Lakin cəmiyyətin başqa zümrəsi isə dildən, bir növ, xam şəkildə istifadə edir.

Ümumxalq dilinin cilalanmış nümunəvi hissəsi olan ədəbi dil xalqın dilinin ən yaxşı cəhətlərini özündə cəmləşdirir. Azərbaycan ədəbi dili respublikamızın dövlət dili olmaq etibarilə orta və ali məktəblərdə tədris olunur. İlk növbədə Azərbaycan dilini tədris edən müəllimlərdən ədəbi dil qaydalarına ciddi əməl etməyi, dilimizə, xüsusilə ədəbi dilə qayğı və məhəbbətlə yanaşmağı, onun qayda-qanunlarına, normalarına riayət etməyi tələb edir. Ədəbi dil milli dilin formalaşmasında mühüm rol oynayır. Hər bir milli dilin ümumanlaşıqlı olması ədəbi dilin köməyi ilə təmin edilir. Buna görə də ədəbi dil daim saflaşır, cilalanır. Ədəbi dil tarixən əldə olunmuş ümummədəni nailiyyətlərin saxlanılması, əbədiləşdirilməsi və nəsillərə ötürülməsində xüsusi əhəmiyyət kəsb edir. Bütün elmi kəşflər, bədii söz sənətkarlarının ölməz əsərləri ədəbi dil vasitəsilə yaşayır və xalqın xidmətində olur. Ədəbi dil müxtəlif məzmunlu hər növ informasiya verməyə qadirdir. Buna görə də ədəbi dil geniş dairədə işlədilir. Ondan dövlət idarələrində, elm, tədris, mətbuat, ədəbiyyat, rəsmi-kargüzarlıq, istehsalat və məişətdə istifadə olunur. Bir sözlə, ədəbi dil, aid olduğu xalq tərəfindən ölkənin hər bir bucağında ünsiyyət vasitəsi kimi geniş tətbiq edilir. Göstərilən bütün bu əlamət və keyfiyyətlər ədəbi dili danışıq dilindən əsaslı şəkildə fərqləndirir.

Elə bu məqsədlə də Ulu Öndər Heydər Əliyevin 2001-ci il iyunun 18-də “Dövlət dilinin tədbiqi işinin təkmilləşdirilməsi haqqında” fərmanı ilə 2001-ci il avqustun 1-dən Azərbaycanda bütün mediya və kütləvi nəşrlərin latın qrafikalı əlifbaya keçməsi rəsmiləşdirildi və hər il avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi rəsmi qeyd olunmağa başladı.

Təqdirə layiq haldır ki, ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. İnam və qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz İlham Əliyevin təşəbbüsü ilə baş tutdu. Ölkə Prezidentinin 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata

keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi və nəticədə kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi baş tutdu.

Şübhəsiz ki, hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı öz ana dilindən savayı, bir çox dilləri bilməlidir bu dillərə hörmətlə yanaşmalıdır. Ulu Öndər gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri – ingilis, alman, fransız, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi. Dil hər hansı bir məlumatı mənimsəmək üçün başlıca alətlərdən biridir. İnsan hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün, dil bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir. "*Dil xalqın bütün çoxəsrlik mənəvi həyatının ən dolğun ən düzgün tarixi olmaqla bərabər, hələ nə kitab, nə də məktəb olmadığı dövrlərdə belə, xalqı öyrədən və onu tarixin sonuna qədər öyrətməkdə davam edən ən böyük xalq tərbiyəsidir*". Hər kəs öz dilini sevir, öyrənir və qoruyur. Dil xalqa məxsus olduğu üçün həmin dilin ölməsi xalqın ölməsi deməkdir. Xalqın aradan çıxması ilə dil ölü dilə çevrilir. Odur ki, bu və ya digər xalqı tələf etmək üçün ilk növbədə onun dilini əlindən almağa çalışırlar.

Beləliklə, dilimizi qoruyan yaşadan, xalqımızdır. Ulu millətimiz dilimizi zaman-zaman yaşadıb inkişaf etdirib, zəngin söz xəzinəsi yaradıb, sözü qızıldan qiymətli sayıbdır. Hər bir insan öz doğma ana dilinə - Azərbaycan dilinə hörmət etməli və onu sevməlidir. Dilin saflığını qoruyub gələcək nəsillərə  çatdırmaq hər bir vətəndaşın müqəddəs borcudur.